# SEYİD NİGARİ MƏKTƏBİ

**K.NƏCƏFOVA**

«...Türkiyəyə hicrət edən son dövr azəri şairləri haqqında məlumatımız adəta yox kimidir. Əski Osmanlı tərcümeyi – hal mühərrir və təzkirənəvisləri bu sahəyə pək az əhəmiyyət verdikləri kimi, azəri təzkirəçiləri də bu xüsusu tamamilə ehmal etmişlərdir. Bu qədər ki, son dövr Qarabağlı azəri şairlərinin tərcümeyi – halını toplayan «Riyazül – aşiqin» müəllifi bir çox Qarabağ şairlərindən bəhs etmişsə də, əsli etibarı ilə yenə Qarabağlı olan nə Seyid Həmzə Nigari, nə də onun oğlu Siraci haqqında heç bir məlumat verməmişdir»[1]. Bu məlumat «Azərbaycan yurd bilgisi» (1932) dərgisinin müdiri doktor Ə.Cəfəroğluya məxsusdur. Bu jurnalda Seyid Nigarinin özü haqqında məlumat verilməsə də bu təriqət başçısının təhsili və tərbiyəsi ilə yetişən ədiblərdən geniş söhbət açılmışdır. XIX əsr Azərbaycan ədəbiyyatı tarixində mürşid kimi mövqe qazanmış Nigarinin nəqşbəndi təriqəti əsasında yaranan təriqəti yayılmış, Seyid özünə çoxlu mürid qazanmışdı. Mühacirət dövründə Türkiyədə «Seyid Nigari məktəbi» yaranmış, azəri mühacirləri bu məktəbin işığına yığılmış, Mir Həmzə Nigari təlim- tərbiyəsindən bəhrələnmişlər. Bu şəxsiyyətlərdən «Azərbaycan yurd bilgisi»ndə «Azərbaycan ürəfa və üdəbaşına aid notlar» və «Anadoluda azəri şairlərə aid bir kaç not» silsilə məqalələrdə bəhs olunmuşdur.

Şair Hacı Mehmet Əfəndi də bu şəxsiyyətlərdəndir. Mirzadə Mustafa Fəxrəddinə görə, onun təqribən 1826-cı ildə Azərbaycanın Qazax nəzdində Kür çayının tam kənarında və Qarayazı ormanının qarşısında Şıxlı Şahlıq kəndində doğulduğu bildirilir.

Xalq arasında tanınmış bir ailənin övladı olan Hacı Mehmet Hacı Süleymanın oğludur. Nəsilləri «cöngə oğlu» adı ilə şöhrətli imiş. Bütün Qazax və Qarabağ mühitində «Yel ocağı» deyə şöhrət tapan Hacı Süleymanın məzarı ziyarətgahdır.

İbtidai təhsilini böyük qardaşı Hacı Əhməddən almışdır. Qardaşı vəfat etdikdən sonra Amasyaya getmiş, burada Həmzə Nigari həzrətlərinin yanında təhsilini tamamladıqdan sonra geri dönmüşdür. Bu dönüşdən Mir həzrətləri çox təsirlənmişdir. «Dər bəyani mənqubəti-gülkəşti-vilayəti Qarabağ» sərlövhəsi altında vəsf etdiyi Qarabağın bütün gözəlliklərini sadaladıqdan sonra

[1] Cəfəroğlu Ə. XIX əsr azəri şairi Siraci. «Azərbaycan yurd bilgisi». İstanbul, 1932, sayı 4-5, səh.13.

Mövla verə ömrü bir zamanı
İslam ilə bir də görək anı.
- deyə Hacı Mehmeti xatırlayır, haqdan ona kömək diləyir.

Hacı Mehmet də Seyid Nigarini unutmur:

Dərdi – firaqdan olubdur cigərim yarə mənim,
Apar ey bad əman, hali-dilim yarə, mənim.
Olalı şəmsi-rüxindən o Nigarinin əbəd,
Gündüz olmuş yüzümə gecə kimi qarə mənim.

Xalq içərisində apardığı təbliğata görə ruslar tərəfindən yaxalanaraq həbs edilmiş və Gəncəyə aparılmışdır. Əzablı günlərindən şair bacısına müraciətlə yazırdı:

Rus vurub ayağıma qandalaq,
Hicr ilə istər cigərimi dağlamaq.
Yana-yana halımıza ağlamaq,
Vacib olub sübhü – məsa bacıma.

Qıldı bizə gör nə cəfalar fələk,
Günbəgün verdi bəlalar fələk,
Şamü – səhər etdi əzalar fələk,
Çəkdi firaqi – dağ banqa, bacıma.

Həyatının ağır anlarında ancaq Seyiddən kömək umurdu:

Mir Nigariyə gedərəm dadə,
Yetişür ol padişahım imdadə.
Qəmdən ölur Hacı Süleymanzadə,
İsmi Məhəmmədzadə ağlasın.

Bir il həbsdə qaldıqdan sonra Hacı Mehmet zindandan qaçmağa müvəffəq olmuş, lakin Gəncədən bir qədər aralı ruslar tərəfindən öldürülmüşdür. Mirzədənin Tiflisdə əldə etdiyi məlumata görə, Hacının məzarı Gəncəlilər tərəfindən tanınmaqda və ziyarət edilməkdə imiş.

Onun öz əlyazması ilə 80 səhifəlik bir divanı mövcuddur.

Həmzə Nigari məktəbinin yetişdirmələrindən biri də Mahmud Nigarizadə olub. Təqribən 1863-cü il tarixində Qarabağ vilayətinin Qaraqaş kəndində doğulub. Atası, Həmzə Nigarinin Qaraqaşda təhsildə ikən öz müavinəti ilə oxutduğu Nigar xanımın oğlu Hüseyn əfəndidir. Məqalə müəllifi M.Şakirin bu Nigar xanımla bağlı maraqlı qeydi var. O, hesab edir ki, «Həmzə Nigari bu xanımın müavinətilə ikmali təhsilə müvəffəq olduğundan, kəndisinə qarşı bəslədiyi fövqəladə hörmətin nişan şükranı olmaq üzrə «Nigari» təxəllüs etmişdir». Lakin F.Köçərli «Azərbaycan ədəbiyyatı» əsərində bu fikrin tam əksinə olaraq, şairin sevdiyi qızın adının Nigar olduğunu, şerlərində də onu mədh etdiyini yazır.[1] Və yaxud son illərdə dərc olunan başqa bir məqalədə oxuyuruq : «Nigari şairin sevdiyi gözəlin adıdır və onun bütün şerləri öz sevgilisinə həsr olunmuşdur. Şairin Nigari təxəllüsü də buradan götürülmüşdür.[2]

---

[1] F.Köçərli. Azərbaycan ədəbiyyatı. II cild. Bakı, 1981, səh.143.
[2] İslam Sadıq. Füzuli silsiləsinin Nigari zirvəsi. «Kredo», 2004, 31 dekabr.

Seyid Nigarinin ən yaxın müridlərindən olan Mahmud mürşidinin himayəsi altında yetişmiş və onun sayəsində olduqca məsud bir həyat yaşamışdır:

Eşidib olma mükəddər ey könül hər karə sən,
Damənin tut bərk, sığın ol həzrəti Nigarə sən.

Fəqət, Nigarinin vəfatından sonra həyatı müşkülat qarşısında qalmış və bunun acılığını dadmışdır. Nigarinin Harputda vəfatına qədər yanında qalmışdır. Sonra Amasyaya dönmüş və Nigarinin vəsiyyətinə görə bir müddət türbəsinin müəzzinliyini də ifa eyləmişdir.

M.Şakir Nigari təriqətinin daha bir davamçısından bəhs edir. Bu, Səbatidir. Onun təqribən 1843-cü ildə Şəki şəhərinin Qutqaşın kəndində doğulduğu bildirilir. Şairin adı Mehmet Səbatidir. Kiçik yaşlarında ailəsi ilə bərabər Azərbaycandan Ərzuruma mühacirət etmiş, bir müddət burada qaldıqdan sonra azəri mühacirlərinin toplaşdığı Amasyada məskunlaşmışdır. Şairin divanının mövcudluğu barədə məlumat olsa da, məqalə müəllifi Səbatinin yalnız Nigari və onun oğlu Siracinin ölümünə yazdığı şerləri vermişdir.

Ey könül, aç gözünü bircə qara bağını gör
Ki,qara bağlı mehə min qara bağlar çəkilür.
Matəmiylə yenə mat oldu çünün tək üşşaq,
Anları bağlamağa çün qara bağlar çəkilür.
Ey Səbati yetişür mürği-dili zar etdin,
Kim onun naləsinə bülbüli-bağlar çəkilür.

Səbati Nigarinin çox gənc vəfat etmiş oğlu Siracinin ölümünə də şer yazmışdır:

Ah kim söndü Siraci-bəzmi-irfan, ey diriğ,
Qaldılar əhli-məhəbbət sinə suzan, ey diriğ.
Düşdü mütriblər əlindən taru-çəngü, udu-nay,
Məcmeyi-yarana düşdü ahu- əfğan ey diriğ.
Ol ziyayi-çeşm kim canu- dilü-uşşaq idi,
Getdi heyfa, qaldı bunlar bu dilü-can ey diriğ.
Görməmişkən kimsələr ruyunda əsəri-məlal,
Həzrəti –Seyyid-Nigari qıldı ey diriğ.

Bəhaəddin əfəndi də «Mir Nigari məktəbi irfanından yetişən füzəladandır». 1860-cı ildə Şəkinin Kiçik Dəhnə kəndində dünyaya gəlmişdir. Atasının adı Hacı Siracəddin əfəndidir. Bir müddət Qarsda yaşadıqdan sonra Hacı Siracəddin ailəsi ilə bərabər Şama getmək istəmişsə də Həmzə Nigarinin tövsiyəsi ilə niyyətini dəyişdirərək Amasyaya gəlmiş, burada dərs demişdir. Lakin ömür vəfa etməmiş, iki il sonra dünyasını dəyişmişdir. Kiçik yaşlarında ata və anasını itirən Bəhaəddin Mir Nigarinin tərbiyəsi altında böyümüşdür. İbtidai təhsilini bitirdikdən sonra Mir Nigarinin oğlu Siracəddin əfəndidən ərəb dili elmini öyrənmişdir. Nigarinin ən yaxın müridlərindən sayılan Bəhaəddin İstanbul, Harput səfərlərində daima mürşidi ilə birlikdə olmuşdur. Harputdan döndükdən sonra müəllimliklə məşğul olmuşdur. 1932-ci ildə vəfat etmiş və Amasyada dəfn olunmuşdur. Farsca və

türkcə divanı var. Nümunə kimi yalnız «Harputda ikən söyləmişdir» başlığı ilə qəzəli verilir:

Şurü – rüsvadır könül, səhra deyər aləm bu ya,
Dərdmənd olmuş könül, mövla deyər aləm bu ya.
Kəsrəti – vəhdət nədir, saqi peyapey dövri qıl,
Sərgiranəm, bilməzəm aləm nədir aləm bu ya
Sərgiranəm, bilmərəm halım bumu aləm, «Bəha»,
Pür səfa gəncineyi – məna deyər aləm bu ya.

Mir Nigariyə dərin bir məhəbbəti olan müridlərindən biri Şahnigar xanımdır (1848-1893). Təxəllüsü Rəncurdur. Qazaxın Ağ köynək kəndindəndir. Seyid Nigariyə rəğbət bəsləyib səccadə toxumuş, bu səccadə üzərində ona həsr etdiyi şerini nəqş etmişdir.

Bu hədiyyədən çox məmnun olan Nigari cavabında ona şer göndərmişdir:

Əcəb xoşnud olurmu iltifatımızdan deyə sovqat,
Kərəm qılmış Nigaranə, mən rüsvayə göndərmüş.

Bu səccadə Seyidin ölümündən sonra zövcəsi tərəfindən Trabzon saray xanımlarından birinə hədiyyə edilmişdir.

Rəncur xanımın külliyyatı ələ keçməsə də bir neçə şer yadigarı vardır. Bunlar əruz bəhrlərindədir. Elə bəhrlə yazılmış şeri də var ki, onu əruz ahəngi ilə oxumaqla yanaşı heca sayının da bərabər gəldiyini görmək olur:

Hifz eyləsin gözdən xuda,
Kim cəm olub məstanələr.
Saqi eylər sağdan nida,
Əldə dolu peymanələr.

Var eyləsin haq yarını,
Xar eyləsin inkarını.
İzhar edib ənvarını,
Rövnəq bulub meyxanalər.
Öpüb dəsti – əltafını,
Umarlar cami – safını.
Almış qamu ətrafını,
Rəncuri tək suzanələr.

Sanma kim, candan Nigara, dərdi – pünhanım çıxar,
Qılmasan feyzi – nəzər, dildənmi suzanım çıxar.

- mətləli qəzəlini Nigariyə həsr etmişdir.

«Nigari məktəbinin» işığına toplaşanlardan biri də Qarabağlı Sədi olmuşdur. Sədi şairin öz adıdır:

Nola ismim təxəllüsdən təxəllüf tapmasa Sədi
Ki bir dərvişi – müştaq – səadətmənd dərvişəm.

- beyti də bunu göstərməkdədir.

Doğum tarixi təqribən 1833-cü il olaraq göstərilir. Sədi Qarabağın Cinli kəndində doğulmuşdur, ilk təhsilini Dündar kəndində almışdır. Amas-

yada Mir Həmzə əfəndinin qulluğunda tərbiyə gördükdən sonra Qarabağa dönmüşdür:

Sədiya, çıxdıq Amasyayı behişt asadan,
Kəndimiz insan isək haqdan itab almalıyız.

Sədinin qəzəllərində Füzuli üslubu hiss edilir. Dahi sələfinin adını da tez-tez yad edir:

Gəl bir dua qıl dərdinə sən ey Füzuli, Sədinin
Qərq oldu seyli – əşkə dövr Bağdada bax, Bağdada.

Sədi şerlərində klassik ədəbiyyata bağlı olmaqla bərabər, xalq ruhuna da sadiq qalmışdır. Dilində sadəliyi və xalq zövqünü qoruyub saxlayan Sədinin şerləri ədəbiyyatımızda xalq həyatını idealizə etməyə başlamış M.P.Vaqifi xatırladır:

Əvvəla şərt gözəllikdə kəmal olmalıdır,
Saniyən qaideyi hüsnü – cəmal olmalıdır.
Adəmin ağlını aldatmağa cənnət quşu tək,
Danə– danə ağ üzündə qara xal olmalıdır.
Əli nazik, beli nazik, dili nazik gözəlin,
Özü şirin, sözü şirin, ləbi bal olmalıdır.

Sədinin Nigarinin oğlu Siraci ilə sıx dostluq və yaradıcılıq əlaqələri olmuşdur. Siracinin şerləri onun qəzəllərinə təxmis yazmış dostu Sədinin divanının son səkkiz səhifəsində saxlanmışdır.

M.Şakir Sədinin təxminən 43-44 yaşlarında Azərbaycanda vəfat etdiyini bildirir. Qəbri Ağdam yaxınlığında Qarapirim kəndindədir.

«Nigari məktəbinin» yetişdirdiyi ən dahi şəxsiyyət Seyidin oğlu Siraci idi. Mir Nigari təriqətinin davamçıları içərisində yüksək mövqe tutmuş Siracinin şəxsiyyəti və yaradıcılığı barədə söhbətimiz ayrı bir məqalənin mövzusu olacaqdır.

**ƏDƏBİYYAT**


1. M.Şakir. Səbati. «Azərbaycan yurd bilgisi». İstanbul, 1933, sayı 15.
2. M.Şakir. Qarabağlı Sədi. «Azərbaycan yurd bilgisi». İstanbul, 1933, sayı 21-22.
3. M.Şakir.Nigarizadə Mahmud. «Azərbaycan yurd bilgisi». İstanbul, 1933, sayı 23.
4. Mirzadə M.Fəxrəddin. Şair Hacı Mehmet əfəndi. «Azərbaycan yurd bilgisi». İstanbul,1933, sayı 24.
5. Mirzadə M.Fəxrəddin. Rəncur xanım. «Azərbaycan yurd bilgisi». İstanbul,1933, sayı 25-26.
6. Mirzadə M.Fəxrəddin. Bəhaəddin əfəndi. «Azərbaycan yurd bilgisi». İstanbul,1933, sayı 27.
7. Fövziyə Abdullah. XIX əsr azəri şairlərindən Sədi haqqında bir kaç not. «Azərbaycan yurd bilgisi». İstanbul,1934, sayı 35-36.

**ШКОЛА СЕИД НИГЯРИ**

**К.НАДЖАФОВА**

**АННОТАЦИЯ**

В статье дается краткое обозрение с научной точки зрения его личности, значение основанной им школы, его последователей. В подготовке статьи были использованы материалы журнала «Азербайджан юрд бильгиси».